# Prezidentin Şuşa Qlobal Media Forumunda çıxışı beynəlxalq əks-səda yaradıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin II Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki nitqi fərqli istiqamətlər üzrə verilən mühüm mesajlarla diqqət çəkib. Öncə onu qeyd edək ki, forum dezinformasiyaya qarşı mübarizə mövzusuna həsr edilib və Prezidentin çıxışışı da daha çox bu kontekstə köklənib. Nəzərə alaq ki, dezinformasiya son 20 il ərzində dünyanın ən aktual problemlərindən birinə çevrilib. Analitik mərkəzlərin açıqlamalarına görə, yaşadığımız dövrdə "saxta xəbər"in qlobal informasiya dövriyyəsində payı 45-80 faiz aralığında dəyişir. Dezinformasiyanın belə sürətli artımının səbəbini uzun illər ərzində rəqəmsal transformasiya, internetin inkişafı, onlayn media resurslarının, xüsusilə, sosial şəbəkə platformalarının çoxalması ilə əlaqələndiriblər. Qeyd ediblər ki, yeni media alətlərinin inkişafı paralel olaraq "saxta xəbər"in çoxalmasını stimullaşdırır.**

Amma son dövrlərdə bu versiya dəyişir, fərqli məqamlar önə çıxır. Son media nəzəriyyələrində dezinformasiya siyasi mübarizə aləti kimi təsvir edilir. Onun çoxalmasının səbəbi də dünyada siyasi mübahisələrin artması ilə əlaqələndirilir. Qeyd olunur ki, gepolitik savaş aparanlar, dünyanı parçalayıb bölüşənlər öz məqsədlərinə çatmaq üçün dezinformasiyadan silah kimi yararlanırlar. Təsadüfi deyil ki, məşhur "Politico" nəşri "saxta xəbər"i "ABŞ siyasətinin fenomeni" adlandırıb.

Nəzəri fikirlərdə o da qeyd olunur ki, "dezinformasiya bilərəkdən saxtalaşdırılmış, zərərli niyyətlər üçün yaradılmış saxta xəbər növüdür və dünyanı fəlakətə sürükləyir".

II Şuşa Qlobal Media Forumunun verdiyi töhfələrdən biri də odur ki, akademik mərkəzlərin nəzəri baxımdan irəli sürdükləri bu fikirləri praktiki müstəvidə təsdiqləyən yüzlərlə fakt təqdim edildi. Dünyanın aparıcı media təşkilatlarını təmsil edən 150 nəfərlik heyətin iştirakı ilə keçirilən forum dezinformasiyanın yaranması, yayılması və hədəfləri barədə indiyədək deyilməyən fikirləri gündəmə gətirdi.

Prezident İlham Əliyevin forumun açılış mərasimindəki nitqi bu baxımdan daha əlamətdardır. O, öz nitqində Azərbaycanın məruz qaldığı informasiya savaşını, dezinformasiya hücumunu nümunə göstərməklə dezinformasiya yaradıcılarının niyyət və metodları barədə bilgi verdi. 2020-ci ildə baş vermiş II Qarabağ savaşı zamanı, həmçinin, 2023-cü ilin sentyabr ayında gerçəkləşdirilmiş anti-terror əməliyyatları zamanı aparıcı dövlətlərin informasiya müstəvisində yol verdikləri manipulyasiyalar barədə konkret misallar göstərməklə, dezinformasiya yayıcılarının hansı mexanizmlərdən faydalandıqları barədə aydın təsəvvür formalaşdırdı.

Prezident vurğuladı ki, ölkəmiz uzun illər ərzində faktların manipulyasiyasının, yanlış narrativlərin qurbanı olub. Erməni diasporunun səfərbər olunması, ermənipərəst siyasətçilərin, media nümayəndələrinin Azərbaycana qarşı hücum etmələri, yanlış narrativlər yaymaları ölkəmizin reallıqdan çox uzaq bir şəkildə təqdim olunması ilə nəticələnib.

Bu məqamda Prezident onu da vurğuladı ki, natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar daha çox Qərb ölkələrindən qaynaqlanır. Beləliklə, yaşadığımız günlərdə intişar tapan dezinformasiya mənbələrinin dəqiq ünvanını göstərdi. Yeri gəlmişkən, Prezident İlham Əliyevin bu fikri Şuşa Forumuna qatılmış beynəlxalq media strukturlarının təmsilçilərinin dilindən də təkrarlanaraq təsdiq olundu. Məsələn, Əl-Cəzirə Media İnstitutunun meneceri Montaser Marai beynəlxalq ictimai rəyə təsir göstərən trans-milli KİV-lərin daha çox Qərbdəki korporasiyaların əlində olduğunu qeyd etdi. Həmçinin sosial şəbəkə platformalarının da texnologiya nəhənglərinin əlində olduğunu, bu nəhənglərin isə Qərbdə, əsasən, ABŞ-də yerləşdiklərini bildirdi. Dezinformasiyaların daha çox transmilli KİV-lər və sosial media platformalarının üzərindən yayıldığını önə çəkməklə, dezinformasiyaların mənbəyi rolunda Qərbin çıxış etdiyinə işarə verdi: "Onlar məlumat axınına təsir göstərirlər və təəssüf ki, uğur qazanırlar".

Prezident İlham Əliyev öz çıxışında onu da vurğuladı ki, bu gün Azərbaycanın daxil olduğu regionda – Cənubi Qafqazda tarixi transformasiya, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar zəifləyir, yeni əməkdaşlıq formatları meydana gəlir. Bu tarixi gedişata müdaxilə etmək, prosesi öz maraqlarına uyğun şəkildə dəyişmək istəyən güc mərkəzləri vardır. Belə mərkəzlər dezinformasiya yaymaqla hadisələrin təbii gedişatını dəyişmək istəyirlər. Amma Prezident onu da vurğuladı ki, indi Cənubi Qafqazda müharibədən qalib çıxmış, ərazi bütövlüyünü və suverenliyini təmin etmiş qüdrətli Azərbaycan vardır. Azərbaycan öz ərazisini və siyasətini kənar müdaxilələrdən qorumaq gücündədir.

Məlumat üçün qeyd edək ki, Prezident İlham Əliyevin İkinci Şuşa Qlobal Media Forumunun açılış mərasimində verdiyi mesajlar beynəlxalq qurumların diqqət mərkəzindədir. Analitik mərkəzlər Prezidentin çıxışında yer verilən məqamları, xüsusilə, Cənubu Qafqaz regionunda mövcud vəziyyət, Azərbaycan-Ermənistan münasibətləri, Türk Dövlətlər Təşkilatı, enerji layihələri, nəqliyyat dəhlizləri və sair istiqamətlər üzrə deyilənləri təhlil edirlər, nəticə çıxarmağa çalışırlar. Pakistandan başlamış Böyük Britaniyaya, Ərəb ölkələrindən ABŞ-yə qədər ən müxtəlif məkanlarda yerləşən KİV-lər məruzə üzrə məqalələr hazırlayır, təhlillər aparırlar. Hər biri də məsələyə öz nəzər nöqtəsindən yanaşır. Məsələn, "Reuters" və "Politico" kimi nüfuzlu nəşrlər Prezident İlham Əliyevin Fransanın müstəmləkə şəraitində saxladığı ərazilərlə bağlı fikirlərinə yer veriblər. Türkiyənin aparıcı media resursları – "TRT Haber", "Akit", "Star" və "Aydınlık" saytları isə Türk Dövlətlər Təşkilatı ilə bağlı fikirləri önə çıxarıblar. "Anadolu" agentliyi və "Haberler" saytı İsrail–Fələstin münaqişəsi ilə bağlı açıqlamalara diqqət çəkiblər. Almaniyanın "Berliner Zeitung" nəşrində dərc olunan məqalədə isə qeyd olunur ki, Prezident İlham Əliyev forumun açılışında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının - COP29 Tərəflər Konfransının 29-cu sessiyasında Azərbaycanın prioritetlərindən danışıb, daha sonra o, jurnalistlərin suallarını cavablandırıb.

Digər ölkə KİV-ləri də Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda çıxışını fərqli kontekstlərdə işıqlandırıblar və Prezidentin çıxışı beynəlxalq əks-səda yaradıb.

*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

Xalq qəzeti .- 2024.- 23 iyul (№ 153).- S.9.